# Şəhid Babazadə Elşən Sahib oğlunun məzarı ziyarət edilmişdir



Qəbələ Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələri tərəfindən 13 sentyabr 2022-ci il tarixində gecə saatlarında erməni silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhəddində törətdiyi təxribat nəticəsində şəhadətə yüksəlmiş rayonun Mıxlıqovaq kənd sakini Babazadə Elşən Sahib oğlunun məzarı ziyarət edilmiş, üzərinə gül dəstələri düzülmüş, xatirəsi anılaraq, ruhuna dualar oxunmuşdur. Şəhidin ailə üzvləri dövlət tərəfindən onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

# ”Vətən müharibəsi“ - xatirə turniri

Qəbələ Rayon İcra Hakimiyyəti və rayon gənclər və idman idarəsinin təşkilatçılığı ilə “Vətən müharibəsi” şəhidlərinin xatirəsinə həsr edilmiş gənclər arasında futbol üzrə xatirə turniri keçirilmişdir. Maraqlı və gərgin idman mübarizəsi şəraitində keçən final oyununda Soltannuxa kənd komandası turnirin qalibi olmuşdur. Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş və Qəbələ Rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov turnirin keçirilməsinin məqsəd və vəzifələri haqda danışmışdır. Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyətinin Başçısı Səbuhi Abdullayev çıxış edərək torpaqlarımızın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş Vətən müharibəsində şəhid olanların tarixə qəhrəmanlıq salnaməsi yazdıqlarını, onların xatirəsinin yaddaşlardan



heç vaxt silinməyəcəyini və şəhidliyin müqəddəs bir zirvə olduğunu qeyd etmiş, bu cür yarışların keçirilməsinin gənclərin asudə vaxtlarının səmərəli təşkili, gənclərə sağlam həyat tərzinin aşılanması, onların vətənpərvərlik ruhunda tərbiyəsində bədən tərbiyəsi və idmanın rolunun artırılması, futbolun kütləviliyinə nail olmaq, rayon gəncləri arasında futbolun təbliği, futbolçuların idman ustalıqlarının artırılmasında böyük rolu olduğunu vurğulamış və qalib komandalara uğurlar arzulamışdır. Sonda hakimlər heyətinə və qalib komandalara xatirə hədiyyələri, kubok və diplomlar təqdim edilmişdir.

# Səyyar qəbullar

Həyat davam edir. İnsan yaşayırsa deməli onun yaşam tərzi ilə əlaqədar müxtəlif problemlər də mövcuddur. Bu problemlərin aradan qaldırılmasında bəzən çətinliklər, maneələr yaranır. Bu maneələrin aradan götürülməsi isə həm psixoloji, həm də maddi ehtiyaclar tələb edir. Bu ehtiyaclar çox zaman ümumiləşdirilir. Bu isə əksər vaxtlarda yaşadığımız zamanın mövcudluğundan irəli gəlir. Problemlərin həlli də insanların əlində, fəaliyyətindədir.



Aydınqışlaq kəndi.





Zalam kəndi.



Hər bir problem aid olduğu idarə və müəssisə, qurumlar tərəfindən həll olunur, onlara həm psixoloji, həm də müəyyən mənada maddi dəstəklər olunur və insanlar öz həyatlarına davam edirlər.

Məlum olduğu kimi, rayonumuzda ayrı-ayrı qəsəbə və kəndlərdə səyyar qəbulların keçirilməsi artıq ənənə şəklini almışdır. Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev rayonumuzun qəsəbə və kəndlərində sakinlərlə görüşlər keçirir və onların qarşılaşdıqları problemlərin həll olunmasını diqqət mərkəzində saxlayır.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.



Məmmədağalı kəndi.



Mıxlıqovaq kəndi.

Sentyabr ayında rayonumuzun Aydınqışlaq, Zalam, Məmmədağalı və Mıxlıqovaq kəndlərində səyyar qəbullar keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılır. Səyyar qəbullar zamanı kənd sakinləri tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirirlər.